Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi monitorinqin əsas məqsədi şagirdlərin dərsə davamiyyətini müəyyənləşdirmək olub.

Media nümayəndələrinin seçimi əsasında monitorinq Bakının Suraxanı rayonunun 278 və 285 nömrəli orta məktəblərində aparılıb. Monitorinq zamanı qeyd olunan təhsil müəssisələrində şagirdlərin dərsə davamiyyətinin yüksək olduğu məlum olub, eyni zamanda jurnalistləri maraqlandıran məsələlər cavablandırılıb.

Qeyd edək ki, monitorinq bu ilin sonunadək davam etdiriləcək.